# Xocalı faciəsinin 24-cü ildönümü xarici ölkələrdə qeyd edilib

## ABŞ

ABŞ Konqresindəki Azərbaycan üzrə işçi qrupun həmsədri, Tennesi ştatından olan konqresmen Stiv Kohen fevralın 25-də yüzlərlə günahsız insanın ölümü ilə yadda qalan Xocalı qətliamının ildönümü ilə bağlı bəyanat verib.

Konqresmen S.Kohen bəyanatında atəşkəsin imzalanmasından iyirmi ildən çox keçməsinə baxmayaraq, Azərbaycanın Dağlıq Qarabağ və yeddi ətraf rayon daxil olmaqla 20 faiz ərazisinin hələ də işğal altında qaldığını və bir milyondan artıq azərbaycanlının öz evindən didərgin düşdüyünü deyib.

Stiv Kohen Azərbaycanın çox çətin qonşuluq mühitində olmasına baxmayaraq, bir çox məsələlərdə, o cümlədən təhlükəsizlik və enerji məsələlərində ABŞ və müttəfiqlərinin güclü tərəfdaşı olmasını vurğulayıb. Eyni zamanda, konqresmen Azərbaycanın beynəlxalq sülhməramlı əməliyyatlara, xüsusilə NATO-nun Əfqanıstan əməliyyatına mühüm töhfəsini diqqətə çatdırıb.

Konqresmen bəyanatında, həmçinin Azərbaycanın aparıcı rol oynadığı "Cənub" qaz dəhlizinin inşasının təbii qaz təchizatı baxımından Avropa dövlətləri üçün önəmli alternativ təşkil edəcəyini, habelə ölkəmizin İsrailin neft istehlakının təxminən 40 faizini təmin etdiyini vurğulayıb.

Sonda konqresmen S.Kohen dünya azərbaycanlılarının Xocalı faciəsinin qurbanlarının xatirəsini qeyd etdiyi bir məqamda ABŞ-ın Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə daha da fəal şəkildə dəstək verməsinin önəmini diqqətə çatdırıb. Konqresmen, həmçinin fevralın 25-də ABŞ Konqresində Xocalı faciəsi ilə bağlı təşkil edilmiş anım mərasimində iştirak edib.

* * *

"Xocalıya ədalət!" kampaniyasına dəstək və Xocalıda Azərbaycan xalqına qarşı törədilmiş qətliam ilə bağlı həqiqətlərin ABŞ ictimaiyyətinin diqqətinə çatdırılması məqsədilə fevralın 26-da Ohayo ştatının Deyton şəhərində anım mərasimi keçirilib.

Axıska Türkü-Amerikanlar Cəmiyyəti Mərkəzi tərəfindən Azərbaycanın Vaşinqtondakı səfirliyi ilə birgə təşkil edilmiş tədbirdə Ohayo ştatında yaşayan axıska türkü, türk və azərbaycanlı icmaların nümayəndələri və yerli ictimaiyyətin təmsilçiləri, o cümlədən Martin Luter Kinq Assosiasiyasının Deyton üzrə rəhbəri Entoni Vaytmor iştirak ediblər.

Tədbirdə Axıska Türkü-Amerikanlar Cəmiyyəti Mərkəzinin rəhbəri İslom Şahbəndərov çıxışında əslən Azərbaycanın dilbər guşəsi Şuşa şəhərindən olduğunu və Dağlıq Qarabağda ermənilər tərəfindən törədilmiş işğalçı və vandal aktlara ürək ağrısı ilə canlı şahidlik etdiyini vurğulayıb. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin sülh yolu ilə həllinə və münaqişə nəticəsində öz tarixi torpaqlarından didərgin düşən azərbaycanlıların tezliklə doğma yurdlarına geri dönəcəyinə əminliyini ifadə edib.

Daha sonra Azərbaycanın Xocalı və Şuşa şəhərindən məcburi köçkün olmuş axıska türkləri və Ohayo ştatının türk diaspor üzvləri çıxış ediblər. Xocalı şəhərindən məcburi köçkün olmuş axıska türkü Xəlil Çaxalidze çıxışında 1992-ci ilin fevralında Xocalıda erməni terrorçuları tərəfindən qəddarcasına törədilmiş vəhşiliklərdən danışıb. O, ailəsi ilə birlikdə digər Xocalı sakinləri kimi ermənilərin dözülməz və qeyri-insani aktlarının qurbanı olmasından bəhs edib.

Xocalı faciəsinin dünyanın bir sıra dövlətləri və eləcə də ABŞ-ın 20-dən çox ştatının qanunverici orqanları tərəfindən tanınması diqqətə çatdırılıb. Martin Luter Kinq Assosiasiyasının Deyton üzrə rəhbəri Entoni Vaytmor çıxışında Xocalı soyqırımı ilə bağlı ictimai maarifləndirilmənin ən doğru mübarizə üsulu olduğunu bildirib.

Tədbirdə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla anılıb, həmçinin Xocalı faciəsindən bəhs edən film, eləcə də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" kampaniyası çərçivəsində tərtib edilmiş materiallar nümayiş etdirilib.

* * *

Fevralın 26-da ABŞ Azərbaycanlılar Şəbəkəsi (USAN) Ermənistanın Vaşinqtondakı səfirliyi qarşısında Xocalı soyqırımının 24-cü ildönümünə həsr olunmuş etiraz aksiyası keçirib.

Aksiyada Azərbaycan icmasının Vaşinqtonda və onun ətrafında yaşayan üzvləri iştirak ediblər. Nümayişçilərin əllərindəki plakatlarda Ermənistanın Azərbaycana qarşı təcavüzü və Xocalı soyqırımı haqqında faktlar əks olunub. Bannerlərdə dünya birliyinə müraciətlə Xocalı soyqırımının dövlət səviyyəsində tanınmaq şüarları, həmçinin bu faciənin Amerikanın 20-dən çox ştatı və dünyanın bir sıra ölkələri tərəfindən tanınması və pislənməsi haqqında məlumatlar yer alıb.

Aksiya zamanı "Erməni terrorunu pisləyin!", "Xocalı qırğını bir daha təkrarlanmamalıdır!", "Ermənistan etnik təmizləmədə təqsirkardır!", "Ermənistana ar olsun!", "Ermənistan, Qarabağdan rədd ol!", "Sarkisyan, Qarabağdan rədd ol!", "Uşaq qatilləri!", "Ermənistan vassal dövlətdir!", "Xankəndidəki oyuncaq rejim rədd olsun!", "Amerikalı vergi ödəyicilərindən pul dilənmədiyiniz yetər!", "Biz Xocalını unutmayacağıq!", "Azərbaycan torpaqlarından əl çəkin!", "Ermənistan, beynəlxalq hüquqa riayət et!" və sair şüarlar səslənib.

Etiraz aksiyasının iştirakçıları Ermənistan hökumətini Xocalı soyqırımını tanımağa çağırıb. Həmçinin erməni silahlı qüvvələrinin Azərbaycandan dərhal çıxarılmasını, girovların azad olunmasını və azərbaycanlı məcburi köçkünlərin doğma yurdlarına qayıtması üçün şəraitin yaradılmasını tələb ediblər. İcma üzvləri Ermənistan hökumətini Azərbaycanın Dağlıq Qarabağ regionunun digər yaşayış məntəqələrində, o cümlədən Malıbəyli, Quşçular, Ağdaban və Qaradağlıda da dinc azərbaycanlı əhalinin kütləvi şəkildə qətlə yetirilməsi faktlarını tanımağa çağırıblar.

Aksiyanın sonunda rəsmi Yerevanın apardığı işğalçı siyasətinə görə Ermənistanın siyasi və iqtisadi cəhətdən bərbad vəziyyətə düşməsi və tamamilə vassal dövlətə çevrildiyi vurğulanıb. Aksiya iştirakçıları Ermənistanın BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 nömrəli qətnamələrinin tələblərini yerinə yetirməsinə çağırışlar ediblər.

Qeyd edək ki, ABŞ Azərbaycanlılar Şəbəkəsi Xocalı qətliamı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq bu kütləvi qırğının tanınması tələbləri ilə bağlı hər il etiraz aksiyası keçirir. Bununla yanaşı, şəbəkə artıq 9 ildir Amerika ictimaiyyətini Xocalı soyqırımı barədə məlumatlandırmaq üçün hər il bir neçə kampaniya keçirib.

* * *

## Fransa

Fransada "Xocalıya ədalət!" məlumatlandırma kampaniyası çərçivəsində təşkil olunan tədbirlər davam edir.

Fevralın 26-da Parisin məşhur Yelisey Çölləri xiyabanındakı Zəfər Tağı altında Xocalı qurbanlarının xatirəsinə həsr edilmiş anım mərasimi təşkil olunub.

Azərbaycanın Fransadakı səfirliyinin, UNESCO yanında daimi nümayəndəliyimizin, Azərbaycan Silahlı Qüvvələrinin, Avropa Azərbaycan Cəmiyyətinin, Azərbaycanın Dostları Assosiasiyasının, eləcə də yerli assosiasiyaların, Oradur komunası və Oradur-sür-Qlan şəhid ailələri Milli Assosiasiyasının, "Houilles"un keçmiş döyüşçüləri Assosiasiyasının, Parisdə yaşayan Azərbaycan icmasının üzvləri Parisin məşhur Yelisey Çölləri xiyabanında təşkil edilən mərasimdə toplaşıblar. Xiyabanda toplaşan insanlar, Azərbaycan bayrağı, Xocalı qurbanlarının xatirəsinə həsr edilmiş əkillilər turistlərin və yerli əhalinin diqqətini cəlb edib. Onlara Xocalı soyqırımı haqqında məlumat verilib.

Azərbaycanın Fransadakı səfiri Elçin Əmirbəyovun da iştirak etdiyi mərasimdə Xocalı qurbanlarının xatirəsi yad edilib və səfirliyin, UNESCO-dakı nümayəndəliyimizin, Silahlı Qüvvələrimizin, mərasimdə iştirak edən assosiasiyaların nümayəndələri adından "Əbədi məşəl"in önünə əklillər qoyulub.

Azərbaycanın və Fransanın dövlət himnləri səsləndirilib.

Səfir Elçin Əmirbəyov, UNESCO yanında daimi nümayəndəliyimizin rəhbəri Anar Kərimov və digər nüfuzlu qonaqlar Zəfər Tağı kompleksinin xatirə kitabına ürək sözlərini yazıblar.

* * *

## İsrail

Ərazisi əsasən qumsal və daşlı sahələrdən ibarət olan İsraildə yaşıllıqlara qayğıkeş münasibət bəslənilir. Yaşıllıqların sahəsi hər il artırılır. Adətən yeni ağacların əkilməsi təntənəli mərasimə çevrilir.

Belə mərasimlərdən biri də bu il fevralın 26-da İsrailin birinci prezidenti Xaim Vaytsmanın adını daşıyan meşədə keçirilib. Burada yeni bağ salınıb. Bağda cəmi 613 ağac əkilib. Bu 613 ağac Xocalı faciəsində dünyasını dəyişmiş 613 günahsız qurbanın xatirəsinə ehtiram əlamətidir.

Belə bir aksiyanın təşəbbüskarı İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasıdır (Aziz). Heydər Əliyev Fondu, "Xocalıya ədalət!" beynəlxalq kampaniyası və Keren Kaemed Le İsrael Yəhudi Milli Fondu (KKL YMF) da bu ideyanı dəstəkləyib və onun həyata keçirilməsinə kömək edib.

"Aziz" Assosiasiyasının mətbuat xidmətindən verilən məlumata görə, ağacəkmə mərasimindən əvvəl KKL YMF-nin MDB ölkələri departamentinin direktoru İqal Yasinovun rəhbərliyi ilə mitinq keçirilib.

Mitinqdə Azərbaycanı Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Rasim Musabəyov və parlamentin Əmək və sosial siyasət komitəsi sədrinin müavini Rauf Əliyev təmsil edib.

Tədbirdə İsrail tərəfdən İsrail-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri, "Aziz" Assosiasiyası nəzdində Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Yeganə Salman çıxış edib. Yəhudi Milli Fondunun vitse-prezidenti Zeev Noymanın mitinq iştirakçılarına məktubu oxunub.

Memorial lövhənin təntənəli açılış mərasimindən sonra Heydər Əliyev Fonduna və "Aziz" İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasına bu bağın təməlinin qoyulması barədə KKL YMF-nin xüsusi sertifikatları təqdim edilib. Ravvin Şmuel Simantov və onun böyük oğlanları dua oxuyaraq ağacəkmə aksiyasına xeyir-dua veriblər. Daha sonra İqal Yasinov tədbirin təşkilatçılarını və qonaqları ağacların əkilməsində iştirak etməyə dəvət edib.

Mərasimdə Tirat-Karmel şəhərinin meri Arye Tal, Afula şəhəri merinin birinci müavini Mixail Barkan, şəhər sovetlərinin deputatları Aviran Mişiyev, Marqarita Kozakova, Samariya regional şurası sədrinin müavini Xanan Niv, ictimai təşkilatların nümayəndələri, universitet professorları və başqaları da iştirak edib.

* * *

## Türkiyə

Türkiyənin İzmir şəhərinin Bornova rayonunda Azərbaycan Dostluq Parkı və bu parkda Xocalı soyqırımı abidəsinin açılışı olub.

İzmirdəki Azərbaycan Kültür və Dayanışma Dərnəyinin sədri Mülazim Pahsa ilə Azərbaycanda fəaliyyət göstərən Xocalı Soyqırımını Tanıtma İctimai Birliyinin sədr müavini Dilbər Sultanovanın birgə təşəbbüsü əsasında Bornova bələdiyyəsi tərəfindən həyata keçirilən layihənin açılış mərasimində Azərbaycan və Türkiyə deputatları, diplomatlar, Bornova sakinləri, QHT və KİV təmsilçiləri iştirak ediblər.

Azərbaycanın və Türkiyənin himnləri səsləndirildikdən sonra Xocalı şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Türkiyə Böyük Millət Məclisinin üzvləri Tuncay Özkan, Aytun Çıray, İzmirin ayrı-ayrı rayon bələdiyyə sədrləri və digər nüfuzlu şəxslərin tədbirə ünvanladıqları məktublar oxunub. Məktublarda erməni faşistlərinin törətdikləri Xocalı soyqırımı pislənilib.

Azərbaycan Milli Məclisinin deputatı Aqil Abbas, Bornova rayon bələdiyyəsinin sədri Olgun Atila və həmin rayonun icra nümayəndəsi Mustafa Gündoğan, İstanbuldakı baş konsulluğumuzun konsulu Kənan Murtuzov, Azərbaycan Kültür və Dayanışma Dərnəyinin sədri Mülazim Pahsa, Türkiyə-Azərbaycan Dərnəklər Federasiyasının sədri Bilal Dündar, Xocalı Soyqırımını Tanıtma İctimai Birliyinin təmsilçisi, Xocalı sakini Aqil Məmmədovun çıxışları dinlənilib.

Çıxışlarda 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni vandallarının Azərbaycanın Xocalı şəhərində törətdikləri cinayətin dəhşətlərindən bəhs olunub.

* * *

## Rusiya

Azərbaycanın Rusiyanın Yekaterinburq şəhərindəki baş konsulluğu və Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) Sverdlovsk vilayətindəki "Azərbaycan" ictimai təşkilatının təşəbbüsü və təşkilatçılığı ilə fevralın 26-da "Xocalıya ədalət!" kampaniyası çərçivəsində anım tədbiri keçirilib.

Tədbirdə şəhərdə yaşayan soydaşlarımız, vilayət və şəhər administrasiyasının nümayəndələri, Sverdlovsk vilayətində akkreditə olunmuş diplomatik nümayəndəliklərin və fəaliyyət göstərən milli icmaların təmsilçiləri, jurnalistlər iştirak ediblər.

Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Heydər Əliyev Fondunun dəstəyi ilə çəkilən və Xocalı hadisələri haqqında geniş məlumat verən film nümayiş etdirilib.

Konfransda Azərbaycanın Yekaterinburq şəhərindəki baş konsulu Sultan Qasımov çıxış edərək bildirib ki, bu faciə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş, əsrin Xatın, Xirosima, Naqasaki və Sonqmi kimi dəhşətli faciələri ilə bir sırada dayanan ən ağır cinayətlərindən biridir. Son bir neçə il ərzində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə bütün dünyada keçirilən "Xocalıya ədalət!" kampaniyası barədə geniş məlumat verilib, bu kampaniyanın nəticəsi kimi Xocalı hadisələrinin soyqırımı aktı kimi dünyanın 10-dan artıq ölkəsinin parlamentləri və ABŞ-ın 20-dən çox ştatı tərəfindən tanındığını və pislənildiyini bildirilib.

Sverdlovsk vilayətinin "Azərbaycan" ictimai təşkilatının sədri Şahin Şıxlinski, professor Niyaz Vəliyev, Ural Dövlət Universitetinin beynəlxalq əlaqələr şöbəsinin müdiri Vladislav Belayev, Ural Dövlət Dağ Mədən Universitetinin sosial layihələr idarəsinin rəhbəri Natalya Sareqorodseva və başqaları Xocalı faciəsini dünya tarixində olan soyqırımları ilə müqayisə edərək faciənin miqyasından bəhs ediblər.

Tədbir iştirakçıları faciə haqqında videofilmlərə və sənədli lentlərə baxış təşkil ediblər, erməni faşistlərinin vəhşiliyindən və faciənin miqyasından bəhs edən mühazirələrlə çıxış ediblər.

Tədbir iştirakçıları universitetin elan guşələrində əvvəlcədən hazırlanmış Xocalı faciəsi haqqında plakatlar yerləşdirib və ali məktəbin tələbələrinə flayerlər paylayıblar. Eyni zamanda, sosial şəbəkələrdə #xocalıyaədalət kampaniyasına qoşulmaq üçün fotolar çəkdiriblər.

**AZƏRTAC**